# Möhkəm ol, şəhid atası!

**Onu ilk tanıdığım vaxtdan yarım əsr keçir. Əvvəllər Sumqayıt teatrında çalışıb, bir müddət də direktor olub. Qırx ilə yaxındır ki, Akademik Milli Dram Teatrının aparıcı aktyorudur. Xalq artisti fəxri adına layiq görülüb, inişildən Prezidentin fərdi təqaüdçüsüdür. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dosent kimi çalışır. Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş baş leytenant Rövşən Nurzadənin atasıdır Əli Nur.**





...Tabor komandiri Rövşən Nurzadə Vətən müharibəsində Füzulinin, Cəbrayılın, Qubadlının, Şuşanın işğaldan azad olunmasında iştirak edib. Daşaltıda yaralansa da, geri durmayıb. Noyabrın 6-da Şuşanın girişində şəhidlik zirvəsinə ucalıb.

Könlümdən keçdi ki, şəhid atası olan ünlü sənətkarın 75 yaşını təbrik edərək, oxuculara ondan söz açım. Əli Nur Azərbaycanın sənət kəhkəşanına Ağsu rayonunun Bico kəndindən pərvazlanıb.

Maraqlıdır ki, o, əvvəlcə Xalq Təsərrüfatı İnstitutunun Sənayenin iqtisadiyyatı fakültəsinə daxil olubmuş. Üçüncü kursa keçəndə görüb ki, yox, uşaqlıqdan sevdiyi aktyorluq sənətinin cazibəsindən çıxa bilmir. Nəhayət, üç il sonra xeyirxah insanların köməyi sayəsində köçürmə ilə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsinin birinci kursuna qəbul edilib. Sənət müəllimləri Xalq artisti, rejissor və aktyor Rza Təhmasib, rejissor Əliheydər Ələkbərov və Əzizağa Quliyev olublar. İnstitutu bitirincə təyinatla Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına göndərilib. Orada tamaşalarda bir sıra əsas rolları oynayıb. Mən də bir sumqayıtlı kimi həmin tamaşaların hamısına baxmışam.

Sonra o, sənət taleyini qısaca "Azdrama" adlanan böyük mədəniyyət məbədi ilə bağlayıb. Zəngin obrazlar qalereyası yaradıb. Neçə-neçə film və teletamaşada da çıxış edib. Çoxsaylı ictimai və dövlət tədbirlərinin iştirakçısı olub. Güclü, bir qədər də yerinə düşən pafoslu səsi var. Özünəməxsus monoloqları ürəklərə tez yol tapır və yadda qalır.

...Oğlu Rövşən Nurzadə Hərbi Akademiyada təhsil aldıqdan sonra Ağdamdakı "N" saylı hərbi hissədə qulluq edib. İllər sonra baş leytenant kimi ordudan tərxis edilsə də, Vətən müharibəsi başlananda ehtiyatda olan beş zabiti də özü ilə apararaq könüllü döyüşlərə atılıb. Qarabağın yaşayış məntəqələrinin işğaldan təmizlənməsində fədakarlıq göstərib. Ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "İgidliyə görə", "Vətən uğrunda", həmçinin Qubadlının və Şuşanın azad olunmasına görə medalları ilə təltif olunub.

Bəli, Rövşən səhnədə atasının sənətini davam etdirməsə də, həyatda, döyüş meydanında qəhrəman rolunu oynayıb, özü də qat-qat yüksək səviyyədə. Əli Nur ötən ilin sentyabrında oğlunun şəhid olduğu Şuşaya səfər edib. Cıdır düzündə övladının ruhuna şeir səsləndirib:

***Şuşanın göylərindən cənnətə yol salmısan,***
***Salmısan ürəklərə sonsuz məhəbbət, Şəhid!***
***Canla zarafat olmaz, cəsarətin bəllidir,***
***Yadigar balaların anana təsəllidir...***

Onu da qeyd edim ki, Prezident İlham Əliyev Xalq artistinin ailəsinə 1 gündə 2 mənzil hədiyyə edib. Əli Nurun özünü də, oğlunun ailəsini də sevindirib. Şəhid atası həm Rövşənin təltiflərinə, həm də yeni mənzillərə görə dövlət başçısına ürəkdən minnətdarlıq edib.

O, müsahibələrinin birində deyib: "Rövşən və onun kimi mərd oğullar şəhid olmasaydı, düşmənlərin işğal etdiyi o müqəddəs torpaqlarımızı kim xilas edəcəkdi? Ölümsüz, itkisiz, şəhidsiz torpaq almaq olmur. Şərəfsiz ermənilər deyirdilər ki, Qarabağa görə ayağa qalxsanız, gəlib Bakını alacağıq. Bizim igidlərimiz onlara yerini göstərdi, onlar oğlanlarımızın qarşısında bir heç oldular..."

Möhkəm ol, şəhid atası! Qəddini düz tut! Sən hələ çox obrazlara həyat verəcəksən!

**Əli NƏCƏFXANLI,**
**"Xalq qəzeti"**

Xalq qəzeti.- 2023.- 10 yanvar.- S.10.